# Elmlə şəxsiyyətin harmoniyasını yaşadan ziyalı



***Yusif YUSİFOV, ADPU-nun Azərbaycan Dilçiliyi Kafedrasının dosenti, ümumi dilçilik üzrə baş elmi işçi***

Həsən Mirzəyevi yaxşı tanıyanlar, sevənlər onu həmişə ürəklərdə yaşayan dəyərli insan, filoloq alim,qayğıkeş müəllimkimi xatırlayacaqlar. O, sadaladığımız bu müsbət mənəvi keyfiyyətlərin daşıyıcısı idi. Filologiya üzrə elmlər doktoru, əməkdar elm xadimi, professor Həsən Mirzəyev yüksək elmi dərəcəyə və elmi ada, həmçinin fəxri ada dilçilik elmi sahəsində əldə etdiyi, qazandığı elmi uğurlarına görə layiq bilinsə də, elmi ictimaiyyət, dərs dediyi tələbələr, yetişdirdiyi dissertantlar, eləcə də ünsiyyətdə olduğu müxtəlif vəzifə sahibləri, ayrı-ayrı ixtisasların, peşələrin tanınmış nümayəndələri, qohumları, yaxın tanışları onun filologiyaya - dilçiliyə, ədəbiyyatşünaslığa, folklora, aşıq sənətinə aid dolğun yaradıcılıq axtarışları ilə diqqəti çəkən alim olmaqdan başqa sözün geniş mənasında ziyalı, xeyirxah insan kimi yaddaşlarda qaldığını, ürəklərdə silinməz izlər qoyduğunu söyləyirlər.

Müsbət mənəvi-əxlaqi keyfiyyətlərinə, güclü əqidəsinə,cəsarətli olduğuna, qorxmazlığına, həmişə haqq-ədaləti qoruduğuna, möhkəm iradəsinə, tükənməz səbrinə görə Respublikanın yüksək, böyük vəzifəli şəxslərinin, məşhur, geniş məkanda tanınmış alimlərinin, ziyalılarının,mədəniyyət-incəsənət xadimlərinin, istedadlı şairlərinin, xalqın sevgisini, məhəbbətini qazanmış adlı-sanlı aşıqların,çalışdığı, təhsil aldığı qocaman Azərbaycan Dövlət Pedaqoji Universitetinin professor-müəllim heyətinin yaddaşında əbədi qalan şəxsiyyətdir. Həsən müəllim həmişə dahi şəxsiyyətin, Ulu Öndərin ideyalarının alovlu təbliğatçısı kimi tanınmış, o böyük insanı Azərbaycan dövlətinin yaradıcısı, qurucusu, xalqımızın xilaskarı adlandırmışdır. O, heç bir təhlükədən çəkinmədən qara qüvvələrin Heydər Əliyevə qarşı hücum etdikləri zaman böyük şəxsiyyətlə dəfələrlə görüşmüş, xalqımızın və ölkəmizdə yaşayan azsaylı xalqların Ulu Öndərimizin ətrafında toplanmalarınıalqışlamış və çox sevinmişdir. Doğma Vətəninə ürəkdən vurğunluğu, insanlığı yüksək dəyərləndirməsi, dünyaya göz açdığı yerin hər qarışınıürəkdən sevməsi, ona səmimi isti münasibəti, oranın dərələrinə, dağlarına, bulaqlarına və meşələrinəhərtərəfli bələdliyi Həsən Mirzəyevi həmvətənlilərinin gözündə daha da ucaltmışdır.

Ürəklərdə yaşayan, gözəl insan, qayğıkeş ustad müəllim və görkəmli filoloq alim haqqında çox danışmaq, onu təyin edən sözlərin sayını yetərincə artırmaq mümkündür. Çünki, əməkdar elm xadimi, eləcə də tanınmış ictimai xadim kimi Respublikamızda yaxşı tanınan filologiya üzrə elmlər doktoru, professor Həsən Mirzəyev müsbət mənəvi-əxlaqi keyfiyyətlərin layiqli daşıyıcısı olduğu üçün yaddaşlarda əbədi iz qoymuşdur. Xalq arasında müdrikşəxsiyyət, ağıllı ağsaqqal kimi tanındığı üçün Ulu Öndər Heydər Əliyevin ailəsində böyüyüb boya-başa çatmış, Respublikamızın Prezidenti İlham Əliyev də həmişə Həsən Mirzəyevi müsbət yönümdən dəyərləndirmişdir. Haqqında danışdığımız el ağsaqqalı Həsən Mirzəyevin Ulu Öndərlə söhbəti zamanı böyük inamla Ermənistanın güclü havadarlarının köməyi ilə o zaman Azərbaycanda hakimiyyətdə olanların səriştəsizliyindən, zəifliyindən yararlanaraq düşmənin yağmaladığı, əsarətə aldığı torpaqlarımızı mütləq qaytaracağımızı tam əminliklə deməsi-,İlham Əliyevdə ona qarşı müsbət münasibət formalaşdırmışdır.

Həsən Mirzəyev işğalçı Ermənistan və onun təcavüzkar tərəfdarlarının köməyilə Azərbaycanın o zamankı rəhbərliyinin idarəetmə bacarığı olmayan, ümumiyyətlə, xalqın inamını qazana bilməyən, o cümlədən hakimiyyətdəki şəxslərin kütbaşlığından, bacarıqsızlığından yetərincə istifadə edən düşmənlərin o vaxtlar Dağlıq Qarabağ deyilən torpaqlarımızıvə ətraf rayonları işğal etdiyini çox yaxşı anladığına görə Ulu Öndərimiz kimi, Respublikanın Prezidenti, Ali Baş Komandan İlham Əliyev də onu həmişə düzgün mövqedən dəyərləndirmişdir.

Həsən Mirzəyev xalqın Ulu Öndər adlandırdığıdahi şəxsiyyət Heydər Əliyevin əbədi yaşamaq hüququ qazanmış ideyalarına söykənərək çalışmışdır.Hər cür qara qüvvələrin Heydər Əliyevə qarşı çıxdıqları zaman heç kimdən, heç nədən çəkinməyərək Naxçıvana getmiş, böyük tarixi şəxsiyyətlə görüşmüş, həmişə türksoylu azərbaycanlıları, eləcə də respublikamızda yaşayan, özlərini azərbaycanlı sayan, əksəriyyəti Azərbaycan ədəbi dilində tam orta, ali təhsil alan, elmi araşdırmalar apararaq onu dövlət dili kimi qəbul edən azsaylı xalqları Ulu Öndərin ətrafında toplaşmağa, onu müdafiə etməyə çağırmışdır. Həsən Mirzəyev xalq ruhuna dərindən bələd olduğu üçün hər bir şəxsin xarakterinə, dünyagörüşünə və psixologiyasına uyğun danışmağı bacarmış, buna görə də hər yerdə hörmətlə qarşılanmışdır.

Həsən Mirzəyev Respublika ali məktəb əlaçısı, əmək veteranı, YAP-ın Siyasi Şurasının üzvü olmuşdur, 25 noyabr 2022-ci il tarixli Azərbaycan müəllimi qəzetində dərc edilmiş “ Ulu öndər Heydər Əliyevlə söhbətindən” adlı yazıda çox maraqlı məsələlər öz əksini tapmışdır. Heydər Əliyev: “Bu gün parçalanmış, övladları pərən-pərən düşmüş Azərbaycanın nə vaxtsa Böyük Azərbaycan kimi mövcud olacağına ümid edə bilərikmi?” - sualına Həsən Mirzəyevin cavabı belə olmuşdur: “Biz gec-tez öz torpaqlarımızaqayıdacağıq. Nəinki Dağlıq Qarabağı, hətta Qərbi Azərbaycan torpaqlarını da geri qaytaracağıq. Bunun üçün danılmaz imkanlarımız var. Əvvəla Azərbaycan xalqının sayı ermənilərin sayından qat-qat çoxdur. İkincisi, imperiyaların hökmranlıq dövrü getdikcə sona yetir. Üçüncüsü, ermənilər bu gün ələ keçirdikləri torpaqları əllərində uzun müddət saxlaya bilməyəcəklər, çünki torpağı qorumaq üçün onu əkib-becərmək lazımdır. Ermənilər isə torpaq adamı deyillər. Az bir müddətdən sonra bu gün Ermənistan deyilən ərazidə yaşayan ermənilərin çoxu qaçıb gedəcəklər. Bir də dünyada getdikcə türk amili güclü rol oynamaqdadır. Türk dünyası gücləndikcə, bizim itkilərimiz də aradan qalxacaq”.

Ulu Öndərin dərin məzmunlu, mürəkkəb suallarına doğru,düzgün və dəqiq cavablar verə bilməsi professor Həsən Mirzəyevin geniş bilikli alim, böyük vətənpərvər, yetkin diplomat, dərin düşüncəli, müdrik şəxsiyyət olduğunu çox aydın göstərir və sübut edir. Onun elmi, eləcə də ictimai-siyasi sahələrdə apardığı, gördüyü işlərin bünövrəsindəAzərbaycançılıq, çoxcəhətli elmi yaradıcılığının özəyində Vətənə məhəbbət, sevgi dayanır. Həsən Mirzəyev özünü anladığı dönəmdən bütün həyatı boyu Azərbaycançılıq, Türkçülük, milli-mənəvi dəyərlərin qorunması üçün çalışmış, Qərbi Azərbaycanın azərbaycanlıların torpaqları olduğunu inandırıcı qaynaqlara, tarixi faktlara söykənərək tutarlı elmi araşdırmaları ilə sübut etməyi bacarmışdır.

Azərbaycanın Dərələyəz mahalına yırtıcı, pis xislətli ermənilərin yerləşdirilməsini tarixi ədalətsizlik adlandıranbu haqsızlığın iki yüz ildən artıq davam etdiyini incəliklərinə qədər çox yaxşı bildiyindən bu kədərli tarixi hadisənin



unudulmasına, yaddan çıxmasına yol verməmək üçün yorulmadan mübarizə aparmasıictimai-siyasi xadim Həsən Mirzəyevin vətəninə, xalqına böyük xidmətlərindən biridir.

Ulu Öndər Heydər Əliyevin əvvəl qeyd etdiyimiz qəzetdədahi şəxsiyyətin xalqımızı düşündürən sualına uzangörən professor Həsən Mirzəyevin verdiyi cavab həqiqət oldu. Ümummilli lider Heydər Əliyevin ailəsində böyüyüb boya-başa çatmaqla böyük həyat universiteti bitirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin azğın, yırtıcı düşmənlərin və onların tərəfdarlarının işğal etdikləriyerləmizi, bütün hədə-qorxulardan çəkinməyərək əskər və zabitlərimizədüzgün yönümdə rəhbərlik etdiyinə görə adları göstərilən Silahlı Qüvvələrimizin qəhrəmanlığı, igidliyi ilə 30 ildən sonra özümüzə qaytarması dünya hərb tarixində görünməmiş, analoqu olmayan bir hadisə kimi dəyərləndirildiyi üçün dünyanı heyrətləndirdi.

Filologiya üzrə elmlər doktoru, əməkdar elm xadimi, professor Həsən Mirzəyevin həm məzmun, həm də formaca çoxşaxəli elmi yaradıcılığının başlıca xarakterik əlaməti və özəlliyi çoxcəhətlilik olduğu üçün o, bir neçə yönümdən araşdırıla bilər. Həsən Mirzəyevin elmi, həmçinin yaradıcılığının gücü və möhtəşəmliyi bənzərsizliyindədir. Bu hərtərəfli, ensiklopedik filoloq alimin dilçilik, ədəbiyyatşünaslıq, folklorşünaslıq, onun mahnı və musiqi ilə sıx bağlılığına görə incəsənətin başqa sahələrindən seçilən,aşıqlıq sənətinə aid təkrarsızaraşdırmaları tapıntı statuslu elmi yaradıcılıq nümunələridir.

Məqalələrinin, dərsliklərinin, monoqrafiyalarının özəlliyi bənzər sizlik dən qaynaq lan ma la rın dan dır. Tanıyanlarının, elmi-pedaqoji fəaliyyətinə hörmətlə yanaşanların, onu sevənlərinin qəlblərində, düşüncələrində yaşayan Həsən Mirzəyevinhəm məzmun, həm də formaca çoxşaxəli xarakterli elmi yaradıcılığı-nın başlıca özəlliyi çoxcəhətlilik sayıldığına görə onun bir neçə yönümdən araşdırılması daha məqsədəuyğundur. Buna görə də görkəmli filoloqun elmi yaradıcılığınınincəliklərini üzə çıxarmaqdan, filoloji məzmununu açıqlamaqdan ötrü ayrı-ayrı elm sahələri üzrə apardığı araşdırmaları qruplaşdırmaqlafilololoji görüşlərini sistemli şəkildə təhlil etmək mümkündür. Həsən Mirzəyevin yaradıcılığının əhatə dairəsi genişdir. O, ixtisascadilçi kimi daha çox tanınsa da, eyni zamanda ədəbiyyatşünaslıq, folklorşünaslıq və onun maraqlı qolu sayılan aşıq yaradıcılığı sahələrində araşdırmalar aparmışdır. Görkəmli filoloq alim həm də istedadlı şairdir, yüksək bədii keyfiyyətlişeirləri vardır. Həsən Mirzəyevin Qərbi Azərbaycanın Ağbaba, İrəvan, Qaraqoyunlu, Zəngəzur, Göycə mahalları-nınfolklorunun öyrənilməsində böyük xidmətləri danılmaz həqiqətdir. Onun topladığı folklor örnəkləri janr rəngarəngliyi ilə fərqlənir. Həsən müəllimin Ağbaba, Göycə, Zəngəzur, Dərələyəz və s. yerlər folkloruna aid dəyərli tapıntıları vardır. Ağbaba folklor nümunələrinə-yaylaqaltılar, boranlar, lağamalar, nanaylar, bəxtaçmalar, papaqaltılar, tırmıqlar daxildir. İrəvan folklorundan baxıştalar, Qaraqoyunlu folklorundan yasaqlar, yalvarışlar, Zəngilan folklorundan diləklər, hekayətlər, dodaqqaçmalar, Göycə sicilləmələri janrlarında yaradıcılığı güman edilən, yəni janr baxımdan dolğun şəkildə araşdırılıb öyrənilməmiş folklor örnəkləridir. Bu silsiləyə aid edilən, yəni açıqlamalar verilmiş xalq yaradıcılığı örnəkləri yetərincə öyrənilməmişdir. Ətraflı açıqlamalarına zəruri ehtiyac duyulan folklor tapıntılarının müəyyən layını Həsən Mirzəyev Dərələyəz mahalından tapıb üzə çıxarmışdır.

Həsən Mirzəyevin əsərlərinin 14 cildlik külliyatı çağdaş zamanla səsləşən dəyərli elmi qaynaqları özündə birləşdirir.Elmi tələblərə yetərincə cavab verən ayrı-ayrı, müxtəlif problemlərin elmi-nəzəri həlliverilən yaradıcılıq axtarışlarında Azərbaycan xalqının qədim tarixi, soykökü, etnogenizi müxtəlifyönümlü Azərbaycan kontekstində araşdırılmışdır. Onun imzasını Azərbaycanda və xarici ölkələrdə yaxşı tanıdan ən dəyərli kitabı elmi yaradıcılığının tacı dilimizin özü qədər qədim, onun özəlliyini qoruyub saxlamaq üçün potensial gücü olan, əsas nitq hissələri içərisində leksik-semantik, eləcə də qrammatik mənalarının zəngin-liyi, dolğunluğu baxımından bütün nitq hissələrindən yüksəkdə dayanan, söz, nitq hissəsi, cümlə üzvü və cümlə omonimliyinin daşıyıcısı kimi diqqəti çəkən feilin tədqiqinə, təhlilinə həsr etdiyi böyük həcmli “Azərbaycan dilindəfeil” adlı monoqrafiyasıdır. Hərəkəti dildə gerçəkləşdirən, yaxud ifadə edən yaşadı, gördü, oxudu və s. həm hərəkəti bildirən, ifadə edən söz; qrammatik mənasına görə nitq hissəsifeil; cümlə üzvü - xəbər; nisbi bitmiş fikir ifadə etdiyinə, predikativliyinə,modallıq əks etdirdiyinə görə cümlə sayılır. Yəni qrammatik cəhətdən formalaşmış şəxsə, zamana, kəmiyyətə görə dəyişən, yaxud təsriflənən feillər bir neçə müstəqil linqvistik ifadə görümü ola bilər. Elə buna görə də əsas nitq hissələrindən heç birində gözə çarpmayan,dahaçox qrammatik kateqoriyalıqları ilə tanınmaq, yalnız feilə aid edilən linqvistik özəllik sayılır.

*(Davamı var)*